# *MİRZƏ İBRAHİMOV VƏ XX ƏSR AZƏRBAYCAN ƏDƏBİ-NƏZƏRİ FİKRİ*

*Bu günlərdə Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunda xalq yazıçısı, akademik Mirzə İbrahimovun anadan olmasının 100 illiyinə həsr olunmuş 'ey sessiyası keçirilmişdir. Sessiyanı giriş sözü ilə Institutun direktoru akademik Bəkir 'yev açmışdır. Filologiya elmləri doktoru Tehran Əlişanoğlu "Böyük nasir və dramaturq, filologiya elmləri doktoru Sabir Əmirov "Mirzə Ibrahimov və Cənubi Azərbaycanda proses"adlı məruzələrlə çıxış etmişlər. Filologiya elmləri doktoru Şirindil Alışanovun Mirzə İbrahimov və XX əsr Azərbaycan ədəbi-nəzəri fikri" adlı məruzəsinin mətnini təqdim edirik.*

XX əsr Azərbaycan ədəbi- nəzəri fikri bütöv bir anlamdır və onun inkişaf qanunauyğunluqlarının mahiyyətini obyektiv şərh etməkdə bu ədəbiyyatı təmsil edən hər bir fərdin yerini və rolunu obyektiv dəyərləndirməyin zərurəti gündəmdədir. Azərbaycan xalqının dövlətçilik və ədəbi-bədii fikir tarixində müstəsna xidmətləri olan Mirzə ibrahimov çoxsahəli fəaliyyətində sənətin nəzəri məsələləri, milli ədəbi irs, dünya ədəbiyyatı, müasir ədəbi prosesin problemləri xüsusi yer tutur. Mirzə İbrahimovun ədəbi-nəzəri irsi 30-cu illərdən əsrin sonuna qədərki böyük bir epoxanı əks etdirir, onun nəzəri-metodoloji nailiyyətlərini və ideoloji kontekstini özündə əks etdirir. Bete əhatəli mövzu haqqında yığcam təsəvvür yaratmaq üçün onun ədəbi-nəzəri görüşlərinin müasir tutumu güclü olan bir neçə istiqamətinə nəzər salacağıq.

1945-ci ildə təsis edilmiş Azərbaycan Milli Elmlər Akademiyasına iki yazıçı seçilmişdir: Səməd Vurğun və Mirzə İbrahimov. Bunu bir neçə mənada yozanlar olmuşdur. İlk növbədə hər iki yazıçının ictimai-siyasi nüfuzu önə çəkilmiş, onların humanitar fikrimizin inkişafındakı xidmətləri arxa planda qalmışdır. Birinci amilin rolu şübhəsizdir, lakin XX əsr humanitar fikrinə yenidən nəzər saldıqda görürük ki, Səməd Vurğun və Mirzə İbrahimov hələ 30-40-cı illərdə milli-mənəvi tərəqqiyə istiqamət verən şəxsiyyətlər idi. Mirzə İbrahimov bir alim kimi geniş erudisiyaya, milli və bəşəri ictimai tutumlu təfəkkür tərzinə malik tədqiqatçı idi. Onun ilk tənqidi və nəzəri məqalələrindəki təhlil mədəniyyəti, elmi məntiq və mühakimə səviyyəsi, düşüncə tərzinin vüsəti dərhal seçilirdi. Hələ 1939-cu ildə nəşr edilmiş "Böyük demokrat" monoqrafiyası dediklərimizə parlaq sübutdur. Bu monoqrafiya təkcə Mirzə Cəlil yaradıcılığını əhatə etmir. Mirzə Cəlil sənətinin milli qaynaqları, onun qidalandığı rus, Avropa mədəni irsi bu tədqiqatın kontekstində dayanır. Azərbaycan ədəbiyyatı tarixində yeni dövrü şərtləndirən ictimai- fəlsəfi və ədəbi amillər Mirzə İbrahimov tərəfindən güclü elmi məntiqlə, tarixi inkişaf prosesində tədqiq edilir. Azərbaycan ədəbiyyatında realist başlanğıcıncın qaynaqları, onun Vaqif, Zakir poeziyasında dərinləşməsi və M.F.Axundov yaradıcılığında yaradıcılıq metodu reallaşması yüksək təhlil mədəniyyəti ilə sübut olunur. Mirzə İbrahimov gənc tədqiqatçı ola-ola müdrik bir alim kimi təmkinli elmi intonasiya ilə danışırdı. Onun elmi təhkiyəsindəki sanbal, güclü daxili məntiq ədəbiyyatımızın böyük tarixi ünün inkişaf səciyyəsi haqqında dəqiq təsəvvür yaradır. Şübhəsiz ki, Mirzə İbrahimov klassik irsi dəyərləndirmədə marksist metodologiyaya əsaslanırdı, daha doğrusu tarixilik prinsipini rəhbər tuturdu və öz aktuallığını saxlamaqdadır. Mirzə İbrahimovun milliyyətçilik təfəkkürü öz xalqının sahib olduğu zəngin mənəvi sərvətlərin zəminində formalaşmışdı. Milli poetik inkişafın tarixi mənzərəsinə nəzər salarkən Vaqif sənətinə verilən qiymət bunu ehtiva edir: "Vaqif klassik ədəbiyyatın köhnəlmiş ənənələrini pozur. Şeri xalqla daha artıq yaxınlaşdırır, xalq ruhuna uyğun sadə və təbii şəklə salır. Vaqif yazılı ədəbiyyatdan daha dərin tarixə malik olan və daim geniş xalq kütləsinin həyatını, arzu və istəklərini ifadə edən eanlı, zəngin Azərbaycan folklorunu yaradıcılığının əsasına qoyur."

"Böyük demokrat" monoqrafiyasında tarixi ədəbi inkişafın göstəricisi kimi, realizm kateqoriyası əsas götürülür və bu fonda ədəbiyyatın janr, üslub, qəhrəman, bədii təsvir sistemi baxımından təkamülü izlənilir. Bədii fikrin tarixi təkamülü haqqında nəzəri mülahizələr konkret kateqoriyaların təhlili ilə reallaşdırılır. Tədqiqatçı ictimai-sosial mühitin ədəbi inkişaf təsirini doğru qabardır və bu zəmində çar Rusiyasının imperiya üsul-idarəsinin mahiyyətini dəqiq müəyyənləşdirirdi: "Çarizmin

soyğunçuluğuna və hiyləgər siyasətinə düşmən olan Zakirin etirazında müəyyən dərəcədə geniş Azərbaycan əhalisinin də etiraz və narazılığı ifadə olunmuşdur. Bunun da real ictimai səbəbləri vardır. Məlum olduğu üzrə, çar idarə sistemi ilə bərabər, Azərbaycana çarizmin klassik bürokratizmi və zülmü gəlirdi."

Göstərilən monoqrafiyanın bugünkü elmi-metodoloji dəyəri Mirzə Cəlil fenomenini müəyyən edən sosial və estetik şərtləri təkamüldə götürməsidir. Müəllifin M.f.Axundova ünvanladığı aşağıdakı mülahizəni o, eyni dərəcədə Zakir, Haqverdiyev, Vəzirov, nəhayət, Mirzə Cəlil sənəti timsalında da əyaniləşdirə bilir: "M.f.Axundovun geniş demokratizmi və qüdrətli realist ədəbi cərəyanı əvvəlki ictimai-iqtisadi və ideoloji inkişaf tərəfindən hazırlanmışdır."

Monoqrafiyada Mirzə Cəlilin ədəbi fikrin və milli ideologiyanın inkişafındakı misilsiz xidmətləri onun əsərlərinin bədii sistemində izlənilir. Bədii əsərin bütün vahidlərini özündə birləşdirən milli ruhun və düşüncənin reallaşma məqamları sərrast şərh edilir: "Ədəbi əsərdə milli xüsusiyyətlər döşdən asılan lövhə ola bilməz. Bu xüsusiyyətlər realist əsərin bütün quruluşuna, bütün yazılışına və süjet xəttinə üzvi surətdə daxil olur. Süjetin inkişafında, surətlərin böyüyüb boy atmasında, büllurlaşmasında əsas zəminədir. Bu, yalnız ayrı-ayrı tiplərin, ünsürlərin iki-üç xarakter sözü təkrar etməsindən ibarət deyildir. Surətlərin düşüncə və tipologiyasının, hərəkət və danışığının xüsusi şəklidir. Cəlil Məmmədquluzadənin əsərlərində milli kolorit surətin bütün varlığında, bədii düşüncəsində və həyatı idrak üsulunda özünü göstərir."

Mirzə Cəlilin publisistik fəaliyyətinin tarixi mənası, milli ictimai-mənəvi tərəqqidə yeni bir epoxanı müəyyən etməsi bu əsərdə - "Böyük demokrat" monoqrafiyasında bir də ona görə dəqiq elmi şərhini tapır ki, müəllif "Əkinçi"dən "Molla Nəsrəddin"ə gedən yolun zaman məsafəsində xalqın məişətində, yaşayış tərzində, təsərrüfat fəaliyyətində, siyasi və mədəni tərəqqisindəki irəliləyişi mətbuatla həyat arasında apardığı paralel təhlillərlə üzə çıxardır.

Bu əsər üzərində geniş dayanmağımızın konkret səbəbləri var. Öncə, bu əsər çox gənc, iyirmi səkkiz yaşlı Mirzə İbrahimovun elmi-nəzəri hazırlığı, analitik təfəkkür tərzi, Azərbaycan ədəbiyyatı ilə yanaşı dünyanın qabaqcıl mədəniyyəti ilə tanışlığının əyani nümunəsidir. Digər tərəfdən, Azərbaycanda yeni dövr ədəbi-bədii təsisatlarını müəyyən edən amillər doğru müəyyən edilir, yığcam bir əsərdə yeni bir epoxanın ideya-estetik mahiyyəti haqqında dolğun təsəvvür yaranır. Mirzə İbrahimovun bu əsərinin tarixi əhəmiyyəini unudulmaz Yaşar Qarayev çox sərrast ifadə etmişdir: "Geniş nəzəri əhatə və miqyas, faktlar zənginliyi, aydın metodologiya, estetik qiymətin və meyarın dəqiqliyi, məntiq və ifadə sərrastlığı - bütün bunlar M.İbrahimovun filologiya əsərlərinin ləyaqətini təşkil edir. Xüsusən, "Böyük demokrat" - böyük milli klassik haqqında yeni tipli, müasir kamil metodoloji səviyyədə yazılmış ilk müştərək tədqiqat kimi bu silsilədən olan bütün sonrakı əsərlərin əsasını qoydu".

Mirzə İbrahimovun bədii yaradıcılığında olduğu kimi, ədəbi-nəzəri irsində də hadisə və faktlara milli tutumu güclü olan geniş vüsətli siyasi təfəkkür baxışı mövcuddur. O, heç bir klassiki, ədəbi əsəri dar çərçivədə qəbul etmir, onun ictimai-sosial mənasının müasirliyini önə çəkirdi. Təsadüfi deyil ki, onun milli və dünya klassikası, folklor abidələri, müasir ədəbi proses, o cümlədən sırf nəzəri səpkili əsərlərində milli-siyasi xadimin nəfəsi duyulur. Bunu Mirzə müəllimin 30-cu illərdən başlayaraq yarım əsrdən artıq davam edən ədəbi-nəzəri irsi də sübut edir.

Şekspir, Şiller, Höte, Bayron, Molyer, Hegel, Didro, Russo, Puşkin, Qoqol, Krılov, Belinski, Çernışevski kimi 30-cu illər tənqidində intensiv tədqiqat predmeti edilən ədəbiyyatşünaslığın yaradıcılıq axtarışları və onun məzmunu haqqında real təsəvvür yaradır.

Azərbaycan tənqidi rus və dünya ədəbiyyatına müraciət etməklə nəzəri metodoloji səviyyəsini yüksəltmək yolunda öz praktik imkanlarını genişləndirirdi. M.Rəfili, Ə.Nazim, H.Zeynallı, M.Arif, M.Cəfər, C.Cəfərov və başqaları rus və Avropa ədəbiyyatından tərcümələr etməklə bərabər nəzəri və təbliği səpkidə məqalə, kitabça və monoqrafiyalarla çıxış edirdilər. 30-cu illərdən başlayaraq bədii yaradıcılıqla paralel elm və publisistika sahəində səmərəli fəaliyyət göstərən M.İbrahimov da ədəbi-elmi fikirdəki bu prosesin fəal iştirakçılarından idi. Azərbaycan tənqidinin bu istiqamətdəki

axtarışlarını ümumiləşdirən M.İbrahimov onun rus ədəbiyyatına ardıcıl müraciət etməsinin əhəmiyyətini 1949-cu ildə yazdığı "Mübariz ədəbi tənqid uğrunda" məqaləsində elmi cəhətdən əsaslandırırdı. "Onun (Azərbaycan tənqidinin - Ş.A.) rus mədəniyyətini və ədəbiyyatını daha dərindən öyrənməsi, bu ədəbiyyatın Azərbaycan yazıçılarına təsirini şərh və təhlil etməsi, istər tənqidin özünün, istərsə də bədii yaradıcılığının inkişaf yolunu xeyli genişləndirir, ideyalılıq, reallıq və həyatiliyin dərinləşməsinə doğru aparır."

M.İbrahimov yarım əsrdən artıq bir dövrü əhatə edən tənqidi-publisist yaradıcılığında klassik və XX əsr rus ədəbiyyatının görkəmli simaları haqqında müxtəlif münasibətlərlə bəhs etmişdir. Ədəbi icmal, portret, yubiley məqaləsi, xatirə, nəhayət, nəzəri problemləri əhatə edən elmi-tənqidi əsərlər M.İbrahimovun dünya ədəbiyyatına müraciətinin əsas formalarıdır. Bu formaları yazıldığı dövrün ədəbiyyatşünaslıq qarşısında qoyduğu vəzifələr və müəllifin konkret məqsədi müəyyən edir. "Çexov və zəmanəsi", "Ölməz sənətkar", "Mütəfəkkir tənqidçi", "Çernışevski", "Böyük yazıçı və inqilabçı demokrat" məqalələri 30-40-cı illər Azərbaycan ədəbiyyatşünaslığının nəzəri səviyyəsini yaxşı əks etdirir. Bu məqalələr tənqid tarixində ilk növbədə rus ədəbi fikrinin milli elmi-tənqidi dərki və qavranılması faktı kimi əhəmiyyətlidir. M.İbrahimov klassik rus ədəbiyyatını milli ədəbiyyat tarixi ilə müqayisələr apararaq təhlil edir, Azərbaycan ədəbiyyatının realizm və xəlqilik baxımından sürətlə inkişaf etməsində mütərəqqi rus ədəbiyyatının rolunu aydınlaşdırır.

M.İbrahimovun rus klassiklərinə həsr etdiyi məqalələrdə keçmiş mədəni irsin müasir estetik şərhi əsas yer tutur. O, Krılov və Qoqol satirasını, Tolstoy və Çexov realizmini müasir ictimai gerçəkliyin irəli sürdüyü problemlər nöqteyi-nəzərindən araşdırır, bu klassik ənənəni yaşayan, ədəbi fikrin inkişafına qida verən zəmin kimi qiymətləndirir. İ.A.Krılov haqqında yazdığı məqalədəki aşağıdakı mülahizələr bu baxımdan yerinə düşür. "SSRİ xalqları isə xeyirlə şərin bugünkü qüdrətli çarpışmasında Krılovun əsərlərindən kəskin bir silah kimi istifadə edirlər. Çünki ölməz və həqiqi bir sənətkar olan Krılov bütün ömrü boyu xeyri, xeyirxahlığı tərənnüm etmiş, insanları zülm, ədalətsizlik, cəhalət və yalana qarşı mübarizəyə çağırmışdır" (M.İbrahimov. "Ölməz sənətkar". Həyat və ədəbiyyat. Bakı, Azərnəşr,1947.səh.114.)

M.İbrahimovun klassik rus yazıçıları haqqında portret məqalələr yazması Azərbaycan ədəbiyyatşünaslığındakı mövcud boşluqdan irəli gəlirdi. Xüsusilə 30-40-cı illərdə rus ədəbiyyatı haqqında milli dildə elmi ədəbiyyatın azlıq təşkil etdiyi bir vaxt böyük rus sənətkarlarının həyat və yaradıcılığı haqqında yazılmış məqalələr xüsusi əhəmiyyət kəsb edirdi. Bu tipli məqalələr həmin dövrün Azərbaycan tənqidində tez-tez yazılırdı. Lakin bütün məqalələr orijinal tədqiqatın nəticəsi olmadığı üçün şərh olunan problemlər rus ədəbiyyatşünaslığının təcrübəsinə əsaslanırdı.

Mirzə İbrahimovun rus klassikləri haqqında məqalələrində yazıçı və cəmiyyət, həyat və ədəbiyyat məsələləri, realizm, xəlqilik kateqoriyalarının şərhi əsas yer tutur. Bu keyfiyyət onun məqalələrinin nəzəri tutumunu artırır. Ümumiyyətlə, M.İbrahimovun ədəbi-tənqidi yaradıcılığını xarakterizə edən yüksək elmi-nəzəri səviyyə onun dünya ədəbiyyatına həsr olunmuş əsərlərinin də əsasında dayanır.

A.Radişev, İ.Krılov, N.Qoqol, L.Tolstoy, A.Puşkin, A.Belinski, N.Çernışevski, M.Qorki kimi klassiklərin yaradıcılığında əks olunmuş böyük ictimai mətləblərdən danışarkən bir tədqiqatçı kimi M.İbrahimovu böyük rus ədəbiyyatını yaradan ictimai-sosial məsələlər düşündürür. Sənətkarın dünyagörüşünün və estetik baxışlarının formalaşmasını şərtləndirən amillər "Lev Tolstoyun realizmi haqqında", "Çexov və zəmanəsi", "Mütəfəkkir tənqidçi", "Həyat və həqiqət müğənnisi" kimi məqalələrdə geniş şərh olunur. Müəllif haqqında danışdığı yazıçıların ədəbi mühitini, xalqla ünsiyyətini, ümumən həyat yolunun bütün mərhələlərini onun yaradıcılığındakı dönüşləri şərtləndirən amillər kimi təhlilə cəlb edir. Krılov satirasının ictimai satiraya çevrilməsinin, tədqiqatçı yaradıcılıq prosesinin dialektik mahiyyətindən irəli gəldiyini göstərir, onun sosial əsaslarını aydınlaşdırır. Krılovun bir janrdan başqa janra keçməsini də müəllif haqlı olaraq yazıçının yaşadığı dövrün ictimai mətləbləri ilə bağlayır. Tədqiqatçı Krılov təmsillərinin rus realist təfəkkürünün inkişafında rolunu yüksək qiymətləndirir: "Onun demokratizmi və ifşaçı realizmi o zaman çox güclü olan Karamzinin və onun ətrafında toplanmış dvoryan yazıçılarının sentimentalizminə qarşı

çevrilmişdi. Bu sentimentalizm həyat hadisələrini və varlığı rəngləyir, boyayır, malalayırsa, Krılovun ifşaçı realizmi əksinə olaraq, onların üzərindən pərdə və dumanı qaldırıb həyat və varlığın həqiqi və canlı cəhətlərini təsvir edirdi" (M.İbrahimov. Həyat və ədəbiyyat. Bakı, Azərnəşr, 1947, səh. 151).

Böyük ictimai xadim kimi rus klassik və sovet ədəbiyyatının Azərbaycanda təbliği və yayılmasında səmərəli yaradıcılıq və təşkilati iş aparan M.İbrahimovun Puşkin, Belinski, Çexov, Tolstoy, Qorki kimi sənətkarların yubileyləri münasibəti ilə müxtəlif vaxtlarda yazdığı məqalələr adi yubiley məqaləsi olmayıb bu sənətkarların yaradıcılığının ən mühüm problemlərinə həsr olunmuşdur.

L.Tolstoy haqqında yazarkən M.İbrahimovun məhz onun realizmini xüsusi təhlil predmeti seçməsi bir tədqiqatçı kimi onun ümumi maraq dairəsi ilə bağlıdır. Realizmin bir yaradıcılq tipi və metodu kimi qaynaqları, onun Azərbaycan ədəbiyyatında təşəkkülü məsələləri, eləcə də sosialist realizminin mühüm yaradıcılıq problemləri M.İbrahimovun ədəbi-nəzəri görüşlərində əsas yerlərdən birini tutur.

Təsadüfi deyil ki, Azərbaycan ədəbiyyatında realizmin qaynaqlarına həsr edilmiş ilk monoqrafiyanın müəllifi məhz M.İbrahimovdur.

Tədqiqatçı L.Tolstoyun yaradıcılıq yoluna onun realizminin tarixi təkamülü baxımından nəzər yetirir, onun əsərlərinin psixoloji təhlil qüdrətini, yazıçının dövrün tipik xarakter və obrazlarını yaratmaqda böyük kəşflərini şərh edir. M.İbrahimovun bir tədqiqatçı kimi müşahidə və ümumiləşdirmələrinin elmi-nəzəri tutumu ona görə orijinal olur ki, o, bir yazıçı kimi bədii yaradıcılığın qanunauyğunluqlarına dərindən bələddir. Tolstoy sənəti haqqındakı aşağıdakı mülahizələrdə tənqidi bədii təfəkkürün imkanları vəhdətdə çıxış edir: "Tolstoydakı psixoloji təhlillər ancaq həqiqətə, insan ürəyinin təbii və həqiqi duyğularına əsaslandığı üçün qiymətlidir. Məhz buna görə də onun mühakimələri, poetik ricət və təsvirləri, qəhrəmanların ürəyində baş qaldıran ən incə hərəkətləri araşdırması süjetin inkişafını, əsərin dramatik gərginliyini azaltmır, daha da qüvvətləndirir" (Mirzə İbrahimov. Lev Tolstoyun realizmi. "Xəlqilik və realizm cəbhəsindən". Azərnəşr, 1961, səh. 369).

M.İbrahimov rus ədəbiyyatının elə cəhətlərini xüsusi nəzərə çarpdırır ki, onlar Azərbaycan ədəbiyyatının müasir sənətkarlıq axtarışlarında bir təcrübə, ənənə kimi qiymətlidir. O, klassik rus ədəbiyyatının ayrı-ayrı milli ədəbiyyatların, o cümlədən Azərbaycan ədəbiyyatının yeni məzmunda inkişafına böyük təsirini konkret müqayisələr, paralellər əsasında aydınlaşdırır.

Klassik rus və Azərbaycan ədəbiyyatı arasındakı əlaqələrə xüsusi tədqiqat həsr etməsə də, müəllifin ədəbiyyatın ümumnəzəri məsələlərinə həsr edilmiş məqalələrinin əksəriyyətində rus və Azərbaycan ədəbiyyatından gətirilən paralellərə tez-tez təsadüf edilir. Bu, M.İbrahimovun rus ədəbiyyatına, rus ictimai-fəlsəfi fikrinin inkişafına yaxından bələd olduğunu təsdiq edir. Belinski, Çernışevski kimi mütəfəkkirlərin yaradıcılığından bəhs edərkən M.İbrahimov onların Rusiyada yaşayan xalqların ictimai, fəlsəfi və bədii fikrinə böyük təsirini ön plana çəkir. "Mütəfəkkir tənqidçi", "Çernışevski",

"Böyk realist" məqalələrində M.İbrahimovun rus fəlsəfi və estetik fikir tarixinə dərindən bələdliyi və onu şərh etməkdə elmi-nəzəri hazırlığı qabarıq nəzərə çarpır. Buna görə də rus nəzəri-estetik fikrinin Azərbaycan yazıçılarının yaradıcılığına təsirinin tarixi mahiyyəti haqqında əsaslı elmi nəticələrə gəlir. Müəllif Çernışevskinin ədəbi-fəlsəfi irsinin böyük beynəlmiləl təsirindən danışarkən yazır: "Onun bədii və nəzəri irsi bütün sovet xalqlarının ədəbiyyat və mədəniyyətinə təsir etmiş, mütərəqqi və qabaqcıl xadimlərin yetişməsində böyük rol oynamışdır. Azərbaycan ədəbiyyatının görkəmli simaları olan Mirzə fətəli Axundov, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Cəlil Məmmədquluzadə Çernışevskidən realizmi, xəlqiliyi, ideyalılığı öyrənmişlər" (M. İbrahimov. Çernışevski. "Xəlqilik və realizm cəbhəsindən". Bakı, Azərnəşr, 1961, səh. 369).

Azərbaycanda inqilabi-demokratik ideyaların təşəkkül tapıb inkişaf etməsində ədəbi təsir problemini M.İbrahimov mexaniki hadisə hesab etmir. Milli sosial və bədii fikrin bu ideyaları qəbul etməyə hazır olduğunu, Azərbaycanda real ictimai zəmin yarandığını göstərir.

Ədəbiyyatın və incəsənətin nəzəri məsələlərinin şərhində M.İbrahimov rus ədəbiyyatının ənənələrinə ardıcıl müraciət edir. Sənətin ictimai məzmunu, dünya bədii fikrində realizmin inkişafı, ədəbiyyatın

janrlarının tarixi və nəzəri məsələləri ilə bağlı mülahizələrində, polemik fikirlərində Puşkin, Qoqol, Qorki, Şoloxov və digər rus yazıçılarının ədəbi irsinə yeni mövqedən yanaşılır, onun konkret mətləblərlə bağlı cəhətləri diqqət mərkəzinə çəkilir. Real ictimai gerçəkliklə ədəbiyyatın ədəbiyyatın dialektik əlaqəsini izah edərkən yazır: "Sənətkarın mütərəqqi ideallarla yaşadığı zaman öz dövrünə, müasirlərinin fikir və ehtiraslarına nə qədər güclü təsir etdiyini göstərmək üçün Almaniyada Şilleri, Rusiyada Qorkini, Azərbaycanda Sabiri xatırlatmaq kifayətdir" (M.İbrahimov. "Realizmin yeni yollarında". Ədəbi qeydlər. Bakı, Azərnəşr, 1970, səh. 39).

"Ədəbiyyat və incəsənətdə satira", "Yaradıcılıq vəzifələrimiz", "Novatorluq və xəlqilik" məqalələrində M.İbrahimov bədii fikir tarixində satiranın rolunu, onun müasir ədəbiyyatda mövqeyini, güclü bədii obrazların yaranmasında zəngin həyati biliyinin əhəmiyyətini, həmçinin ənənə və novatorluq məsələləri haqqında öz fikirlərini əsaslandırarkən Qoqolun "Müfəttiş", Puşkinin "Kapitan qızı", Tvardovskinin "Vasili Tyorkin", Şoloxovun "İnsanın taleyi" əsərlərinə də geniş istinad edir.

Mirzə İbrahimovun milli klassik irsimiz və eləcə də müasir ədəbi proses, həmçinin sırf nəzəri-estetik kateqoriyaları şərh edən məqalələrinin yaşarılığını ehtiva edən amillərdən ən başlıcası bu məsələləri imkan çərçivəsində dünya ədəbi-bədii prosesi konteksti çərçivəsində götürməsidir. Onun "Böyük demokrat" əsəri milli klassikamızı tədqiq etməyin nəzəri-metodoloji başlanğıcına çevrildiyi kimi, "Aşıq poeziyasında realizm" əsəri milli tariximizin aparıcı qollarından biri kimi bu misilsiz sənət nümunələrini tədqiq etməkdə elmi təhlil səviyyəli meyarı müəyyən etdi. Şübhəsiz ki, materializmə paralel realizm axtarışı özünü doğrultmur. Lakin sənətdə realist ifadə imkanlarının fasiləsiz inkişafı təkzibedilməzdir və bu anlamda aşıq poeziyasının tədqiqi real bəhrələrini verdi. İlk növbədə bu zəngin poetik irsin xalqın bədii təfəkkürünün, onun estetik təcəssümünün dinamikasını göstərən milli sənət nümunələri kimi təhlilini tapdı.

Ötən əsrdə xalqımızın taleyi, onun dili və mədəniyyəti ilə bağlı elə ciddi hadisə, elə elmi mübahisə, müzakirə olmamışdır ki, orada Mirzə İbrahimovun sərrast, müdrik sözü eşidilməsin. Ədəbiyyatda realizm müzakirələrindən sonra Şərq renessansı, o cümlədən Azərbaycan intibahı ətrafındakı mübahisələrə M.İbrahimov belə yekun vurdu: "Azərbaycan intibahı müzakirə predmeti yox, faktdır."

Mirzə İbrahimovun ədəbi-nəzəri irsi onun bədii yaradıcılığı ilə bərabər XX əsr Azərbaycanının mədəni tərəqqisində böyük rol oynamış və bu irsin əxlaq və sənət dərsləri tükənməz bir məktəbdir.

**Şirindil Alışanov**